**Burhanzadə Cavanşir Atəş oğlu,**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun "Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi"nin kiçik elmi işçisi, İqtisadiyyat İnstitutunun doktorantı
Ünvan: Bakı şəhəri, H.Cavid pr., 115
E-mail: cavanshirburhanzadeh@gmail.com

**UOT 339.732**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.19**

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR ÜÇÜN İNVESTİSİYA MƏNBƏLƏRİ: FARS KÖRFƏZİ ÖLKƏLƏRİNİN TİMSALINDA

***Açar sözlər:*** *Azərbaycanın post-konflikt əraziləri, investisiya mənbələri, Fars körfəzi regionu, Suveren Sərvət Fondları.*

***Ключевые слова:*** *постконфликтные территории Азербайджана, источники инвестиций, регион Персидского залива, суверенные фонды благосостояния.*

***Keywords:*** *post-conflict areas of Azerbaijan, investment sources, Persian Gulf region, Sovereign Wealth Funds.*

## GİRİŞ

Müasir dünyamızda investisiya cəlb olunması olduqca ciddi problem olaraq qalmaqdadır. Belə ki, xarici investorların əksəriyyəti yalnız çox böyük fayda əldə edəcəkləri təqdirdə sərmayə qoymağa həvəsli olurlar. Region siyasi cəhətdən qeyri-sabit olduqda isə, bu iş demək olar ki, mümkün olmur. Bu baxımdan Azərbaycanın post-konflikt ərazilərinə investisiya cəlb olunması özlüyündə çox mürəkkəb bir məsələdir. Xarici investorları investisiya yönəltməyə vadar etmək üçün sadəcə stimullaşdırıcı tədbirlər görmək fayda vermir. Bəlkə də, bundan da çox, onları narahat edən məqamları aradan qaldırmaq lazımdır. Xarici investorları Azərbaycanın post-konflikt ərazilərinə sərmayə qoymaqdan çəkindirən 3 əsas səbəb mövcuddur. Bu səbəblərə nəzər salaq:

*1. Regionun qeyri-sabitliyi*

Biz öz doğma ata-baba yurdlarımızı işğaldan azad etdik. Lakin düşmən heç bir vəchlə geri çəkilmək istəmir. 44 günlük vətən müharibəsindən sonra istər Qarabağda, istərsə də sərhədyanı bölgələrdə dəfələrlə insidentlər yaşanıb. Bir sıra qlobal və regional güclərin maraqlarına xidmət edən düşmən bu cür kiçik çaplı münaqişələr yaratmaqla Qarabağ probleminin hələ də bitmədiyini və guya oradakı haqlarından vaz keçməyəcəyini göstərməyə çalışır. Məhz bu səbəbdən düşmən sülh müqaviləsinə yanaşmayaraq, dünyaya regionun mübahisə predmeti kimi qaldığını deməyə çalışır. Təəssüf ki, sülh müqaviləsi bağlanmayacağı təqdirdə bir sıra qərəzli ölkələr (xüsusilə qərb dövlətləri) öz iri korporasiyalarının post-konflikt ərazilərimizə investisiya qoymalarına maraqlı olmayacaqlar. Belə demək olar ki, bu məsələ hələ bir müddət öz aktuallığını qoruyacaqdır.

*2. Post-konflikt ərazilərin minalarla çirklənmiş olması*

Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi müəyyən vaxt tələb edir. Bu ərazilərin minalarla döşənməsi heç şübhəsiz ki, investisiya yatırımlarının qabağında ən böyük maneələrdən biri kimi qeyd olunmalıdır. Minalardan təmizlənmə prosesi çox uzun və məşəqqətli bir prosesdir. Belə ki, 2020-2022-ci illərdə 57,6 min ha ərazi minalardan təmizlənib və 2026-cı ilin sonuna kimi 280 min hektar ərazi minalardan təmizlənmiş olacaq [2]. Bu gedişat onu göstərir ki, bütövlükdə bu proses azı 10-15 il davam edəcəkdir.

*1. Siyasi səbəblər*

Məlum olduğu kimi, 44 günlük vətən savaşında və ondan sonra da bəzi dövlətlər aşkar şəkildə bəziləri gizlində Ermənistana həm maddi, həm mənəvi dəstək oldular. Müharibədə qələbə qazandıqdan sonra bir sıra ölkələr öz səhvlərini anlayaraq, bizim yanımızda yer aldılar (Serbiya nümunəsi). Lakin hələ də ölkəmizə qarşı qərəzli münasibət göstərən ölkələr qalmaqdadır. Əfsus olsun ki, onların bir çoxu dünyada söz sahibi olan, elmi texniki tərəqqidə çox irəli getmiş ölkələrdir. Bizim Qarabağda məhz bu ölkələrin investisiya qoyuluşlarına ehtiyacımız olacaqdır.

Təbii ki, bu səbəblərdən əlavə də bir sıra problemlər ola bilər. Lakin hər bir halda o səbəblər də bu və ya digər şəkildə yuxarıda sadaladığım səbəblərdən asılıdır. Bu problemlərin həlli isə, sadə görünsə də, əslində qarışıq və mürəkkəbdir. İlk baxışdan deyə bilərik ki, Ermənistanla sülh müqaviləsinin bağlanması ilə birinci problem aradan qalxacaqdır. Biz ən qısa vaxtda əraziləri minalardan təmizləməyə çalışaraq ikinci problemi də həll edə bilərik. Və ən nəhayət, balanslaşdırılmış xarici siyasətdə ölkəmiz dünyada ən təcrübəli ölkələr sırasında bəlkə də liderdir. Məhz bunun sayəsində Rusiya və İranın neytrallığına nail olub, torpaqlarımızı azad edə bildik. Bunu ərazi bütövlüyündən əziyyət çəkən bir çox dövlətlər də gördü və düşünürəm ki, özləri üçün çox mühüm nəticələr hasil etdilər. Bunun sayəsində biz üçüncü problemi də həll edə və qərəzli ölkələrin fikirlərini, ən azı, neytrallaşdıra bilərik. Ona görə qeyd etdim ki, həqiqətən də ilk baxışdan bu problemlərin həlli ölkəmizin potensialı və dövlət ağlı nəzərə alınarkən sadə görünə bilər. Lakin qeyd etmək yaxşı olardı ki, düşmən tərəf də daim fəaliyyətdədir və biz sadəcə Ermənistan Respublikası ilə yox, eyni zamanda güclü erməni lobbisi ilə də savaşırıq. Bütün bunlara baxmayaraq, dövlətimiz sadalanan istiqamətlərdə ikinci Qarabağ savaşından əvvəl də, sonra da çox mühüm addımlar atıb və atmaqdadır. Bu siyasət bizə torpaqlarımızı bəxş etdi və bu siyasət yenidən Qarabağın və Şərqi Zəngəzurun bərpasına kömək edə bilər. Yəni demək istəyirik ki, investisiya cəlbinin qarşısındakı maneələri dövlətimiz çox gözəl bilir və onun ən qısa müddətdə aradan qaldırılması istiqamətində səylər göstərir. Bu araşdırmamızda da məhz bizim yararlana biləcəyimiz investisiya mənbələrindən bəhs etmişik.

## ƏSAS HİSSƏ

Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidənqurulması üçün nəzərdə tutulan investisiya mənbələrinin regionlar üzrə təsnifatlaşdırılması bizim üçün çox faydalı olardı. Dünyada investisiya fəaliyyətində bəzi regionlara daxil olan ölkələr daha fəaldırlar. Fikrimizcə, investisiya mənbələrini regionlara görə təsnifatlaşdırmaq bizə həmin şirkətləri daha yaxşı anlamaq və onların dünyadakı mövqeyini dərk etmək baxımından əhəmiyyətli ola bilər. Xəritə 1-də investisiya mənbələrinin dünya üzrə regional təsnifatı verilmişdir.

**Xəritə 1. İnvestisiya mənbələrinin regional təsnifatı**




**Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.**

Xəritə 1-dən də aydın olduğu kimi, respublikamızın post-konflikt əraziləri üçün 4 regional mənbədən investisiya cəlb oluna bilər:

1. Şimali Amerika regionu;
2. Avropa regionu;
3. Uzaq Şərq regionu;
4. Fars körfəzi regionu.

Sadaladığım bu 4 region dünyada ən çox investisiya fəaliyyəti ilə məşğul olan şirkətlərin və dövlətə məxsus ən böyük investisiya fondlarının yerləşdiyi ərazilərdir. Dövlət tərəfindən investisiya qoyuluşları üçün fondların yaradılması dünyada yeni hal deyil. 2000-ci illərin sonlarından bu daha geniş vüsət almağa başlamışdır. Bu cür fondlar beynəlxalq aləmdə SWF (Sovereign Wealth Fund) – Suveren Sərvət Fondları kimi tanınır [5]. Şimali Amerika regionunda ABŞ-da "Alabama Etimad Fondu" (Alabama Trust Fund), "Luiziana Təhsil Keyfiyyətinə Etibar Fondu" (Louisiana Education Quality Trust Fund), "Nyu Meksiko Ştat Dövlət İnvestisiya Şurası" (State of New Mexico State Investment Council), Kanadada "Əlahəzrət Kraliça Alberta İnvestisiya İdarəetmə Korporasiyası" (Represented By Alberta Investment Management Corporation), "Kahnawake Suveren Sərvət Fondu" (Kahnawake Sovereign Wealth Fund) və s. bura daxildir. Dünyanın ən böyük Suveren Sərvət Fondu isə Avropa regionunda yerləşən "Norveç Hökumətinin Pensiya Fondudur" (Norway Government Pension Fund Global). Bu fondun cari aktivləri 1.477.729.733.526 ABŞ dollarıdır. Bundan başqa, Fransada "Strateji İnvestisiya Fondu" (Fonds Strategique d'Investissement), Böyük Britaniyada "Milli Təhlükəsizlik Strateji İnvestisiya Fondu" (UK National Security Strategic Investment Fund), İrlandiyada "Milli Pensiya Ehtiyat Fondu" (National Pensions Reserve Fund), Almanyada "Nüvə Tullantılarının Atılması Fondu" (Fonds zur Finanzierung der kerntechnischen Entsorgung), İspaniyada "Dövlət Sənaye İştirakçılığı Şirkəti" (Sociedad Estatal de Participaciones Industriales) və s. fondlar mövcuddur. Uzaq Şərq regionuna gəldikdə isə, deyə bilərik ki, son illərdə bu regiona məxsus investisiya fondlarının cari aktivləri sürətlə artmaqdadır.

Dünya reytinqində ikinci sırada yer alan "Çin İnvestisiya Korporasiyası"nın (China Investment Corporation) cari aktivləri 1,350,863,000,000 ABŞ dollarıdır. Bundan başqa, "Honq Konq Xüsusi İnzibati Bölgəsinin Mübadilə Fondu" (Hong Kong Monetary Authority Investment Portfolio) və Sinqapurun "Hökumət İnvestisiya Korporasiyası" (GIC Private Limited) 500 milyard ABŞ dollarından çox cari aktivlərə malik olmaqla Uzaq Şərqin ən böyük Suveren İnvestisiya Fondlarıdır [13].

*Fars körfəzi regionu*

Bu regionda 8 ölkə (İran, İraq, Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər, Küveyt, Bəhreyn, Oman) vardır ki, əksəriyyəti neft-qaz ixracında dünya liderləri sırasındadır. Xüsusilə Səudiyyə Ərəbistanı, Qətər, Küveyt və BƏƏ investisiya qoyuluşlarında çox öndədirlər. Suveren Sərvət Fondlarına nəzarət bu və ya digər şəkildə dövlətin əlində olur. Fars körfəzi ölkələrinin investisiya yatırımlarında bu fondların müstəsna rolu vardır. Qeyd etmək lazımdır ki, bu tip investisiya fondlarının beynəlxalq reytinqlərində körfəz ölkələri ön sıralarda qərarlaşır.

Cədvəl 1-ə nəzər saldıqda görürük ki, xüsusilə BƏƏ-nin investisiya fondları daha böyük maliyyə ehtiyatlarına malikdirlər. Həmçinin onu da qeyd etməliyik ki, reytinqdə ilk onluqda körfəz ölkələrinin 4 investisiya şirkəti var. Bu təşkilatların hər biri həm öz ölkələrində, həm də dünyanın bir çox ölkələrində öz yatırımları ilə məşhurdurlar. Bizim əsas məqsədlərimizdən biri Qarabağa və Şərqi Zəngəzura bu fondların investisiyalarını cəlb etmək olmalıdır. Yuxarıda adlarını sadaladığımız investisiya fondlarının post-konflikt ərazilərimizə nə kimi fayda gətirə biləcəyini anlamaq üçün onların dünyadakı yatırımlarına nəzər salmaq bizim üçün faydalı olardı.

**Cədvəl 1. Fars körfəzi ölkələrinə məxsus Suveren Sərvət Fondları**

| *İnvestisiya fondunun adı* | *Ölkə* | *Cari maliyyə aktivləri (mlrd, dollar)* | *Dünya reytinqindəki sırası* |
|---|---|---|---|
| *Abu Dabi İnvestisiya İdarəsi* | BƏƏ | 853 | 4 |
| *Küveyt İnvestisiya İdarəsi* | Küveyt | 803 | 5 |
| *Səudiyyə Ərəbistanının Dövlət İnvestisiya Fondu* | Səudiyyə Ərəbistanı | 776 | 6 |
| *Qətər İnvestisiya Təşkilatı* | Qətər | 475 | 10 |
| *Dubay İnvestisiya Korporasiyası* | BƏƏ | 341 | 12 |
| *Mubadala İnvestisiya Şirkəti* | BƏƏ | 287 | 13 |
| *Abu Dabi İnkişaf Holdinqi* | BƏƏ | 159 | 16 |
| *İran İslam Respublikasının Milli İnkişaf Fondu* | İran | 156 | 17 |
| *Əmirlik İnvestisiya Təşkilatı* | BƏƏ | 87 | 21 |
| *Dubay İnvestisiya Fondu* | BƏƏ | 80 | 22 |
| *Oman İnvestisiya Təşkilatı* | Oman | 46 | 29 |
| *Mumtalakat İnkişaf Holdinqi* | Bəhreyn | 18 | 43 |

**Mənbə: Sovereign Wealth Fund Institute (SWFI) tərəfindən verilən məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır [13].**

Qarabağda və Şərqi Zəngəzurda inkişaf etdirilməsi zəruri olan sahələrdən biri, heç şübhəsiz ki, səhiyyədir. Bildiyimiz kimi, son illərdə respublikamızda əhalinin sağlamlığının təminatının qorunması istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Cənubi Qafqazın ən böyük xəstəxanası olan "Yeni Klinika" tibb müəssisəsinin açılması, İcbari Tibbi Sığortanın bütün respublika ərazisində tətbiq edilməsi bu qəbildən olan işlərdir. Lakin onu da qeyd etmək lazımdır ki, bu sahədə hələ də çatışmayan cəhətlər qalmaqdadır. Məhz bu səbəbdən, xüsusilə də işğaldan azad olunan bölgələrimizdə körfəz ölkələrinin geniş səhiyyə təcrübəsindən yararlanmaq bizim üçün çox faydalı olardı. Bu yerdə Səudiyyə Ərəbistanını xüsusi qeyd etmək istərdik. 2022-ci ildə Səudiyyə Ərəbistanında "Səhiyyə Sektorunun Transformasiyası Proqramı" qəbul olunub. Bu proqram ölkənin səhiyyə sistemini əsaslı təmir etmək, vətəndaşlar üçün səhiyyə xidmətlərinə çıxış imkanlarını genişləndirmək və ictimai sağlamlığı daha da yaxşılaşdırmaq kimi bir sıra vacib komponentləri özündə birləşdirir.

Proqramın icra olunması ilə birlikdə Səudiyyə Ərəbistanında səhiyyə işçilərinin sayında mühüm artım müşahidə olundu (65%) [11]. 2022-ci ildə "SEHA" Virtual Xəstəxanası yaradıldı. "SEHA" 30-dan çox ixtisaslaşmış səhiyyə xidməti ilə 150-dən çox xəstəxananı özündə birləşdirən dünyanın ən böyük virtual xəstəxanasıdır [14]. Bu sahədə "Səudiyyə Ərəbistanı Dövlət İnvestisiya Fondu" ilə əməkdaşlıq etmək Azərbaycana çox böyük fayda gətirəcəkdir. Qeyd etməliyik ki, bu fond cari aktivlərinin həcminə görə İslam coğrafiyasında 3-cü, dünya reytinqində isə 6-cı yerdə qərarlaşır. Səudiyyə Ərəbistanın bu sahədəki geniş təcrübəsindən və son illərdə qazandığı uğurlardan yararlanaraq Qarabağda və Şərqi Zəngəzurda səhiyyə xidmətlərinin region üçün yeni nümunəsini yaratmaq olar. Bu heç şübhəsiz ki, Qarabağın və Şərqi Zəngəzurun həm respublika, həm də region əhalisi üçün cazibədarlığını daha da artıracaqdır.

"Yaşıl enerji" mənbələrinə bütün dünyada yüksək sərmayə qoyulur və gələcək üçün ənənəvi enerji resurslarının (tükənən resurslar) əsas alternativi kimi görülür. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında "yaşıl enerji" üçün çox güclü potensial vardır. Təkcə onu demək kifayət edər ki, Azərbaycanın su ehtiyatlarının dörddə biri bu regionların payına düşür. Bu bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir [1]. Ölkə prezidenti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını Azərbaycanın bərpa olunan enerji mənbələri perspektivində görür və müvafiq qurumları bu istiqamətdə təlimatlandırıb. Bunun məntiqi nəticəsi kimi Prezident İlham Əliyevin sentyabrın 28-də açılışını etdiyi Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin dam örtüyündə "yaşıl enerji" mənbəyinin quraşdırılmasını qeyd edə bilərik [3]. "Yaşıl enerji" konsepsiyası da ölkəmizin dünya təcrübəsindən və xarici investisiyalardan yararlanacağı sahələrdən biri olacaqdır. Körfəz ölkələri içərisində BƏƏ-nin "Mubadala İnvestisiya Şirkəti" son illərdə bu sahəyə investisiya qoyuluşları edir. "Mubadala İnvestisiya Şirkəti" "yaşıl enerji" sahəsində Hindistanın ən böyük şirkətlərindən biri olan "Tata Power Company Limited" şirkəti ilə əməkdaşlıq edir. Belə ki, 2022-ci ildə "Mubadala İnvestisiya Şirkəti" "Tata Power Company"yə 525 milyon dollar investisiya qoyuluşu etmişdir [4]. Bərpa olunan enerji sahəsində bu iki şirkətlə əməkdaşlıq etmək post-konflikt ərazilərin "yaşıl enerji" bazasına çevrilməsində müstəsna rol oynaya bilər.

Bildiyimiz kimi, hal-hazırda ekosistemi qorumaq naminə elektrikli nəqliyyat vasitələrindən istifadə geniş vüsət almışdır. Bu sahəyə qoyulan sərmayələr innovativ investisiyaların başında gəlir. Ümumiyyətlə, respublikamızın bir sıra şəhərlərində (Bakı, Gəncə, Şamaxı, Naxçıvan, Neftçala) avtomobil istehsalı müəssisələri mövcuddur. Bunlara Neftçala Sənaye Məhəlləsindəki

«Khazar» Avtomobil Zavodunu, Çinin “Chongqıng Lıfan Industry” Avtomobil Korporasiyası ilə birgə əməkdaşlıq edən Naxçıvan Avtomobil Zavodunu, Finlandiyanın «Sampo» firması ilə əməkdaşlıq edən Gəncə Avtomobil Zavodunu, İranın “Iran Khodra” şirkəti ilə əməkdaşlıq edən Şamaxı Avtomobil Zavodunu (AzSamand) və s. aid edə bilərik. Lakin bu müəssisələrin istehsal etdiyi nəqliyyat vasitələrinin hər biri əsasən daxili bazar üçün nəzərdə tutulmuşdur və ətraf mühitin qorunması baxımından bir o qədərdə keyfiyyətli sayılmırlar. Respublikamızın avtomobil sənayesindəki bu boşluğu doldurmaq üçün Qarabağda və Şərqi Zəngəzurda elektrikli nəqliyyat vasitələrinin istehsalı ilə məşğul olan zavodların fəaliyyət göstərməsi bizim üçün çox yararlı olacaqdır. Bu sahədə də “Abu Dabi İnvestisiya İdarəsi”nin yatırımları bizə kömək edə bilər. Körfəz investorları son 5 ildə Çinin bir sıra avtomobil markalarına əhəmiyyətli miqdarda sərmayə qoyublar. Elektrikli avtomobil sənayesində “Tesla”nın əsas rəqiblərindən biri sayılan Çin şirkəti “NİO”ya “Abu Dabi İnvestisiya İdarəsi” 2.2 milyard dollar həcmində investisiya qoymuşdur [7].

Son illərdə idman sahəsində Fars körfəzi ölkələri Avropada böyük sərmayə qoyuluşları etməkdədirlər. Xüsusilə BƏƏ, Qətər və Səudiyyə Ərəbistanının investisiya fondları Avropanın məşhur futbol klublarını alıblar və almaqdadırlar. “Qətər İnvestisiya Təşkilatı” Fransa nəhəngi PSJ Futbol Klubunun sahibidir və Mançestr Yunayted kimi dünya nəhəngi bir klubu da satın almağa çalışır [10]. Son illərdə İngiltərənin ən uğurlu futbol komandası olan Mançestr Sitinin sahibi isə BƏƏ-nin “Mubadala İnvestisiya Şirkəti”dir [8]. Bir digər Britanya təmsilçisi Nyukasl Yunaytedin isə sahibi Səudiyyə Ərəbistanının “Dövlət İnvestisiya Fondu”dur. Bu siyahını daha da artıra bilərik [12]. Xüsusilə son illərdə bu investisiya fondları öz fəaliyyətlərini daha da artırmaqdadırlar. Onlar futbol klublarına sərmayə qoyarkən əsas kriteriya kimi klubun Avropa liqalarında daimi çıxış imkanlarını nəzərdən keçirirlər. Belə bir şəraitdə ilk növbədə Azərbaycanı uzun müddət Avropada layiqincə təmsil edən Qarabağ FK ağıla gəlir. Bildiyimiz kimi, Qarabağ FK Azərbaycanın Ağdam rayonunu təmsil edir və bu rayon düşmən işğalı zamanı erməni vandalizmindən ən çox əziyyət çəkən rayonlarımızdan biri olmuşdur. Təmsilçimiz 30 ildən artıq müddət idi ki, öz ev oyunlarını Bakıda keçirirdi. Lakin Ağdam artıq azaddır və onun yolunu gözləyir. Heç şübhəsiz ki, Qarabağ FK üçün Ağdamda böyük bazaya və görkəmli stadiona, nəticə etibarilə bunları özündə ehtiva edən böyük idman kompleksinə ehtiyac yaranacaqdır. Bütün bunlar çox böyük vəsait tələb edəcək. Bu baxımdan Qarabağ FK-nın sadaladığımız investisiya şirkətləri ilə əməkdaşlıq etməsi həm klubun özü üçün, həm də Qarabağın yenidənqurulması baxımından olduqca əhəmiyyətlidir. Bu əməkdaşlıq, həmçinin onları Qarabağda iqtisadiyyatın digər sahələrinə yatırım etmək üçün stimullaşdıra bilər. Azərbaycanın post-konflikt ərazilərində iqtisadiyyatın inkişafı və sosial-ictimai həyatın dayanıqlığı üçün sənaye, energetika, səhiyyə, idman kimi sahələrlə yanaşı uzun müddət respublikamızın gələcək perspektivdə əsas iqtisadi bölmə kimi gördüyü kənd təsərrüfatı aparıcı rol oynayacaqdır.

Dünyanın aparıcı aqrobiznes şirkətlərindən biri olan “Olam International” 2022-ci ildə “Səudiyyə Kənd Təsərrüfatı və Heyvandarlıq İnvestisiya Şirkəti” tərəfindən 1.24 milyard dollar sərmayə qəbul etmişdir [9]. “Səudiyyə Kənd Təsərrüfatı və Heyvandarlıq İnvestisiya Şirkəti” “Səudiyyə Ərəbistanı Dövlət İnvestisiya Fondu”na məxsus törəmə şirkətdir. Dünyanın 60-dan çox ölkəsində 80 emal və istehsal müəssisəsi ilə fəaliyyət göstərən “Olam Group” dünya ticarətində özünəməxsus yer tutmaqla bərabər, fəaliyyət göstərdiyi ölkələrin kənd təsərrüfatı sahələrinin inkişafında xüsusi rol oynamışdır [6].

**Cədvəl 2. Post-konflikt ərazilərdə xarici investorlarla yerli dövlət qurumları və özəl şirkətlər arasındakı mümkün qarşılıqlı əlaqə**

| | *AZƏRBAYCANDAKI POTENSİAL TƏRƏFDAŞLARI* | *ƏMƏKDAŞLIQ EDƏCƏKLƏRİ SAHƏ* | *ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNDƏ İNVESTORUN SƏRMAYƏ QOYACAĞI MÜMKÜN İNZİBATİ RAYONLAR* |
|---|---|---|---|
| *Səudiyyə Ərəbistanının Dövlət İnvestisiya Fondu* | *Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, TƏBİB* | *SƏHİYYƏ* | *Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın Kəlbəcər, Ağdərə Xocavənd, Xocalı, Şuşa* |
| *Mubadala İnvestisiya Şirkəti* | *Azərbaycan Respublikasının Energetika Nazirliyi* | *YAŞIL ENERJİ* | *Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın Kəlbəcər, Ağdərə Xocavənd, Xocalı, Şuşa* |
| *Abu Dabi İnvestisiya İdarəsi* | *Cahan Holding, Azərmaş ASC, "Evsen" Şirkətlər Qrupu* | *ELEKTRİKLİ AVTOMOBİL SƏNAYESİ* | *Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı* |
| *Qətər İnvestisiya Təşkilatı* | *Qarabağ FK, Azərsun Holdinq* | *İDMAN* | *Ağdam, Xankəndi* |
| *Səudiyyə Ərəbistanının Dövlət İnvestisiya Fondu* | *Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi* | *KƏND TƏSƏRRÜFATI* | *Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın Kəlbəcər, Ağdərə Xocavənd, Xocalı, Şuşa* |

**Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.**

Səudiyyəli investorların bu şirkətdə 35.4%-lik bir səhmə sahib olduqlarını nəzərə alaraq deyə bilərik ki, "Səudiyyə Ərəbistanı Dövlət İnvestisiya Fondu" ilə müvafiq razılaşmaların əldə olunacağı təqdirdə ölkəmiz postkonflikt ərazilərdə aqrar sənayenin qurulmasında innovativ metodlardan yararlanacaqdır.

Cədvəl 2-də post-konflikt ərazilərdə xarici investorlarla yerli dövlət qurumları və özəl şirkətlər arasındakı mümkün iqtisadi əməkdaşlıq əlaqələrinin sahələr və inzibati rayonlar üzrə bölgüsü verilmişdir.

## NƏTİCƏ

Bütün bunları qeyd edərkən unutmamalıyıq ki, biz Körfəz ölkələrindən investisiya cəlbi prosesində bir sıra çətinliklərlə üzləşə bilərik. Qeyd etməliyik ki, Körfəz ölkələri (məxsusən BƏƏ, Qətər, Küveyt, Səudiyyə Ərəbistanı) daha çox daşınmaz əmlak və yaxud da məşhur maliyyə və sənaye firmalarının səhmlərini alaraq investisiya qoyuluşları edirlər. Məlum olduğu kimi, Azərbaycanın qeyri-neft sektorunda iri sənaye şirkətləri və maliyyə firmaları yoxdur. Belə olan təqdirdə investisiya cəlbediciliyi xüsusilə də körfəz ölkələrinin prizmasından yanaşdıqda bizim üçün aşağı görünür. Bu problemin həllində innovativ investisiyaların cəlb olunmasının ənənəvi metodlarından çox, qeyri-ənənəvi metodları bizim köməyimizə gələ bilər.

İnnovativ investisiyaların cəlb olunmasının ənənəvi metodlarına aşağıdakıları aid edə bilərik:

✓ post-konflikt ərazilərdə xarici investorlar üçün uzunmüddətli vergi güzəştləri tətbiq etmək;

✓ post-konflikt ərazilər üçün fərqli vergi rejimlərini tətbiq etmək;

✓ post-konflikt ərazilərdə xarici investorlara hüquqi məsələlərdə tam dəstək göstərmək;

✓ post-konflikt ərazilərdə maliyyə, hüquq və vergi qanunvericiliklərinin xüsusi rejimlərini tətbiq etmək;

✓ post-konflikt ərazilərdə Azad İqtisadi Zonaların sayını artırmaq;

✓ milli valyutamız olan manatın məzənnə sabitliyini qorumaq;

✓ inflyasiyanın aşağı salınmasına çalışmaq;

✓ yerli biznes subyektlərini xarici investorlarla birgə əməkdaşlığa təşviq etmək üçün bir sıra fiskal rıçaqlardan istifadə etmək (vergi kreditləri, vergi güzəştləri, vergidən tam və ya qismən azadolma).

Fars körfəzi ölkələrindən investisiyaların cəlb olunması üçün aşağıdakı qeyri-ənənəvi metodlardan yararlana bilərik:

✓ yuxarıda adlarını çəkdiyimiz investisiya fondlarının rəhbərlərini vaxtaşırı ölkəmizə dəvət etmək və ölkənin perspektiv imkanları ilə onları yaxından tanış etmək;

✓ körfəz investorları ilə yerli sahibkarlar və dövlət ərkanı arasında şəxsi dostluqların qurulmasına çalışmaq;

✓ ortaq din, mədəniyyət və tarixi keçmişi yeni qurulan iqtisadi münasibətlər üçün körpü etmək;

✓ "vahid islam mədəniyyəti" prizmasından çıxış edərək post-konflikt ərazilərimizin bərpasının mənəvi borc olduğunu körfəz investorlarına aşılamaq və s.

**İstifadə edilmiş mənbələr:**

1. Adilqızı, N. Azərbaycan "yaşıl enerji" ehtiyatları böyükdür // Respublika. – 2022, 22 dekabr. – s. 4.

2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı // 16 noyabr 2022-ci ildə qəbul edilmişdir. – Bakı: - 33 s.

3. Şərqi Zəngəzur iqtisadi rayonu quruculuq meydanına çevrilib // Şərq qapısı. – 2023, 29 sentyabr. – s. 1-3.

4. BlackRock & Mubadala invests in India's Tata Power Renewables // Investing in Global Solutions 2022 Annual Review, – 2023, – p. 61.

5. Rozanov, A. Who holds the wealth of nations? // Central Banking Journal, – 2005, 15 (4), – p. 52-57.

6. A Taste of What We Do: [Electronic resource] / Olam Group. URL:https://www.olamgroup.com/about-olam.html

7. China's Nio to get $2.2 bln investment from Abu Dhabi's CYVN: [Electronic resource] / Reuters. – December 18, 2023. URL:https://www.reuters.com/business/autos-transportation/nio-signs-receive-22-bln-abu-dhabi-investor-cyvn-2023-12-18/

8. Jessie, S. Manchester City signs sponsorship with second Mubadala-backed firm: [Electronic resource] / Insider Sport. – January 27, 2022. URL:https://insidersport.com/2022/01/27/manchester-city-signs-sponsorship-with-second-mubadala-backed-firm/

9. Murdoch, S and Y, Ngui. Olam Agri's Singapore-Saudi $1 bln dual listing may launch as early as June - sources: [Electronic resource] / Reuters. – May 9, 2023. URL:https://www.reuters.com/markets/deals/olam-agris-singapore-saudi-1-bln-dual-listing-may-launch-early-june-sources-2023-05-09/

10. Qatari bid for Man Utd poses questions over PSG's future: [Electronic resource] / France 24. – February 20, 2023. URL:https://www.france24.com/en/live-news/20230220-qatari-bid-for-man-utd-poses-questions-over-psg-s-future

11. Rafızadeh, M. Gulf nations lead the way on healthcare revolution: [Electronic resource] / Arab News. – December 03, 2023. URL:https://www.fpri.org/article/2023/02/the-middle-corridor-through-central-asia-trade-and-influence-ambitions/

12. Taylor, L. How the Saudi Arabian takeover changed Newcastle United: [Electronic resource] / The Guardian. – August 9, 2023. URL:https://www.theguardian.com/football/2023/aug/09/how-the-saudi-arabian-takeover-changed-newcastle-united

13. Top 100 Largest Sovereign Wealth Fund Rankings by Total Assets: [Electronic resource] / Sovereign Wealth Fund Institute (SWFI)/ URL: https://www.swfinstitute.org/fund-rankings/sovereign-wealth-fund

14. Vision Realization Programs: Health Sector Transformation Program: [Electronic resource] / Vision 2030. URL:https://www.vision2030.gov.sa/en/vision-2030/vrp/health-sector-transformation-program/

**Бурханзаде Джаваншир Атеш оглу**

**ИСТОЧНИКИ ИНВЕСТИЦИЙ ДЛЯ КАРАБАХА И ВОСТОЧНОГО ЗАНГЕЗУРА: НА ПРИМЕРЕ СТРАН ПЕРСИДСКОГО ЗАЛИВА**

**РЕЗЮМЕ**

В статье говорится о проблемах привлечения инвестиций в постконфликтные регионы Азербайджана и выдвигаются предложения по решению этих проблем. Речь идет о механизмах привлечения инвестиций ряда важных инвестиционных фондов стран Персидского залива в Карабах и Восточный Зангезур.

**Burhanzade Javanshir Atash**

**SOURCES OF INVESTMENT FOR KARABAKH AND EASTERN ZANGEZUR: ON THE EXAMPLE OF PERSIAN GULF COUNTRIES**

**SUMMARY**

The article dwells on the problems of attracting investment to the post-conflict areas of Azerbaijan and offers suggestions for solving these problems. There is talk about the mechanisms of attracting the investments of a number of important investment funds of the Persian Gulf countries to Karabakh and Eastern Zangezur.

**Redaksiyaya daxilolma tarixi: 02.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 06.02.2024**
**Çapa qəbul olunma tarixi: 10.02.2024**